***Bəşirov Rəşid Yusif oğlu***
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
*"Orta əsrlər arxeologiyası" şöbəsi*
*E-mail: beshirovreshid55@mail.ru*

# ŞƏMKİRİN ZOOMORF VƏ ANTROPOMORF SAXSI QABLARINA DAİR

**Açar sözlər**: Şəmkir şəhəri, zoomorf, antropomorf, bardaq, saxsı qablar

**Ключевые слова**: город Шамкир, зооморф, антропоморф, кувшин, керамические посуды

**Key wards**: Shamkir city, zoomorphic, anthropomorphic, jud, potteries

2010 - 2015-ci illərdə orta əsr Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntılar zamanı əvvəlki illərdə olduğu kimi şirli və şirsiz saxsı məmulatların kütləvi tapıntıları davam etmişdir. Onların arasında zoomorf və antropomorf elementli qabların qırıqları da az deyil. Bu səpgidən olan qabların forma müxtəlifliyi və naxış elementlərinin zənginliyi bizi yenidən bu mövzuya qayıtmağa vadar etdi (1, s.72-79)

Zoomorf saxsı məmulatı qədim dövrdən başlayaraq Azərbaycan xalqının da mənəvi həyatında, dini təsəvvürlərində, zaman keçdikcə formalaşan bədii - estetik baxışlarında özünü göstərirdi. Azərbaycanın ayrı - ayrı arxeoloji abidələrindən çox sayda tunc zoomorf elementli əşyalar qeydə alınmışdır (2, s.75). Belə əşyalar ən qədim dövrlərdən xalqın məişətinə daxil olmuşdur. Şəmkir rayonun Qaracəmirli kəndi yaxınlığında aparılan arxeoloji qazıntılar zamanı orta tunc dövrünə aid 6 saylı kurqandan quş və vəhşi heyvanların kiçik fiqurları aşkar olmuşdur. (3, s.38) Son illərdə aparılmış arxeoloji qazıntılardan aydın olur ki, son tunc, ilk dəmir dövründə yerli sakinlər arasında heyvan kultu geniş yayılmışdı (3, s.191).

Zoomorf məmulatlar antik dövrdə daha geniş yayılmış, özünün bədii tərtibatı, geniş çeşidi ilə fərqlənirdi. Onlar antik dövr Azərbaycan əhalisinin yüksək mənəvi mədəniyyətə malik olmasını əks etdirirdi (3). Mingəçevir (4), Xınıslı (5), Qaratəpə (6) və s. arxeoloji abidələrdən kifayət qədər zoomorf formalı saxsı qablar aşkar olunmuşdur. Orta əsrlərdə müxtəlif məqsədlər üçün istifadə olunan zoomorf formalı və ya zoomorf elementli qabların istehsalı davam etdirilmişdi. Bu dövrdə zövqlə hazırlanmış zoomorf məmulatlar mükəmməl olması və konkretliliyi ilə fərqlənirdi.

Şəmkir şəhər yerindən tapılan zoomorf əşyalar hazırlanma texnologiyasına və bəzək elementinə görə bir - birindən fərqlidir. Qeyd etməliyik ki, zoomorf elementli qablar əsasən heyvanat aləminin və mifik varlıqların formasında hazırlanmış qablardan və ya ayrı - ayrı qabların qulp, boğaz, ya da ağzının zoomorf görünüş verilmiş hissələrindən ibarətdir. Əksər hallarda belə bəzək elementləri daha çox saxsıdan hazırlanmış su qablarında təsadüf edilir. Aparılan müşahidələr göstərir ki, zoomorf bəzək elementləri daha çox bardaqların hazırlanmasında, sonra isə səhənglərdə istifadə olunub. Belə qablardan biri dar boğazlı, lent şəkilli qulpu olan bardağın zoomorf elementli ağız hissəsidir. Qabın ağzı nov şəklində hazırlanaraq irəli çıxarılıb. Yan tərəflərdən ağzına qulaqcıqlar yapışdırılıb. Qulaqcıqlar iki yapma düyməciklə bəzədilmişdir. Qulaqcığın yuxarı ucu yarımdairə formada qatlanaraq qulpun qabın ağzına birləşdiyi yerə yapışdırılmışdır. Boğazında novçanın altında qotazın olduğunu göstərən çıxıntı vardır. Qırmızı boya ilə boyanmış qab-qeyri sabit hərarət rejimində bişirilib (şəkil 1).

Kiçik həcmli bardağın ağız hissəsinin qırığı da oxşar formadadır. Bu qabın da ağzı nov şəklinə salınıb və ağzının kənarlarına yanlardan qulaqcıqlar yapışdırılıb. Qulaqcıqlara öndən baxdıqda aypara görkəmində görünür. Qulaqcıqlara düyməcik - gözcük vurulub. Bardaq qırmızı boya ilə boyanaraq cilalanmışdır (şəkil 2).

Kiçik həcmli su qabının qulpunun bir hissəsi salamat qalıb. "S" hərfinə bənzər fiqurlar basma üsulu ilə salınıb və zəncirvari naxış əmələ gətirir. Naxışın yerliyi qabarıq nöqtələrlə canlandırılıb.

Bardağın ağzı zoomorf formaya salınıb. Sadə hazırlanmış bu qabın boğazı dardır, qulpunun en kəsiyi ovaldır. Ağzının kənarları yanlardan sıxılaraq nov halına salınıb. Ağzının kənarları yapma düyməciklərlə bəzədilib.

Uğurlu əl işlərindən sayılan daha bir zoomorf məmulat darboğazlı bardağın çiyin və boğaz hissəsini əks etdirir. Qabın qulpu lentşəkilli olub, ağzına və çiyninə birləşdirilib. Əks tərəfdə qabın ağzı novça şəklində işlənmiş və irəli çıxarılmışdır. Ağzının yanlarına qulaqcıqlar salınmışdır. Boğazında, çənəsinin altında qotaza bənzər çıxıntı vardır. Qeyd etmək lazımdır ki, qotazın olması onu göstərir ki, bu tipli qablarda əks olunan canlı ev heyvanına, çox ehtimal ki, qoyuna aiddir. Qabın boğazının ortasında üfüqi bikonik qabartma qurşaq vardır. Qurşaqdan aşağıda yapma düyməciklə bəzək salınıb. Çiyni nöqtələmə üsulu ilə salınmış həndəsi naxışla bəzədilib və şüyrələnib (şəkil 4).

Digər bardaq qırığının üzərinə qırmızı boya çəkilib. Ağzı nov formasında irəli çıxarılıb və yanlarından qulaqcıq yapışdırılıb. Qulaqcıqların üzəri çevrələrlə, novçanın altı qotazla bəzədilib (Şəkil 5).

Su qabının ağzı zoomorf biçimə salınıb. Novçalı ağzının kənarlarına enli, böyük qulaqcıq yapışdırılıb. Bardağın boğazının ortası qabarıq qurşaqla bəzədilib. Qulpun yuxarı ucu ağzının kənarına yapışdırılıb (şəkil 6).

Bir-birinə bənzəyən iki bardaq fraqmenti eyni üslubda hazırlanıb. Onlardan birinin ağzı novça halına salınmış və irəli çıxarılmışdır. Ağızın altında qotazı bildirən çıxıntı var. Yanlardan qulaqcıqlar yapışdırılıb. Bu qulaqcıqlarda nöqtəvari deşiklər vardır. Bardaq qırmızı boya ilə boyanıb (şəkil 7). İkinci bardağın da ağzının kənarına qulaqcıqlar yapışdırılıb. Onların üzəri oyma naxışla bəzədilib. Usta bardağın boğazını üç qurşaqla bəzəyib. Qurşaqlarda oyma üsulu ilə rombvari və dalğavari elementlər salınıb (şəkil 8).

Üçüncü bardağın boğazı iki qabarıq qurşaqla bəzədilib. Ağzının kənarına yanlardan yapışdırılmış qulaqcıqlar və qulpun əks istiqamətində olan novça qaba zoomorf görünüş verir. Qulpun ucu ağzının kənarına, digər ucu bardağın dövrəsinə yapışdırılıb. Qulpun üzərinə şırım çəkilib. Qırmızı boya ilə boyanıb və qeyri sabit hərarət rejimində bişirilib (şəkil 9).

Bu qəbil qablardan biri at fiquru formasında hazırlanıb. Salamat qalmış fraqmentin qulaqcığından biri qırılıb. Fiqurun üzəri qırmızı boya ilə örtülərək səliqə ilə şüyrələnib. (şəkil 10). At formasında hazırlanmış zoomorf elementli digər qab da diqqətə layiqdir. Əlimizdə olan fraqment qabın boğazını və lüləyini əks etdirir. Hündürlüyü 11,8 sm olan qabın üzəri şüyrələnib (şəkil 11).

Maraqlı zoomorf qablardan biri yaşıl şirlə şirlənmiş bardaqdır. Bardağın gövdəsi şar şəkilli olub, aşağıya doğru tədricən daralır. Zoomorf görünüş verilmiş boğaz və ağzı atı xatırladır. Belə ki, sifəti ifadə edən novçalı ağzı uzundur. Kənardan yapışdırılmış qulaqcıqlar dikdir. Qulaqcıqların hər ikisində iki deşik vardır. İlk baxışdan onlar bəzək elementi olmaqla yanaşı həm də atın gözləri rolunu oynayır. Bardağın çiyni cızma və basma üsulu ilə salınmış həndəsi naxışla bəzədilib. Qabın qulpu sınmışdır (şəkil 12).

İri tutumlu bardağın dar boğazlı və qulpun əks istiqamətində nov şəklinə salınmış ağız hissəsi salamat qalmışdır. Bu qabın da ağzının yanlarına qulaqcıqlar yapışdırılıb. Lent şəkilli qulpunun ortası ilə şırım salınmış, həmin şırıma nal şəkilli yapma bəzəklər yapışdırılmışdır. Bardağın boğazı üç qabarıq qurşaqla dövrəyə alınıb. Qabın saxsısı ikiqatlıdır. İçəri tərəfdən boz - qara, bayırdan çəhrayıdır. Hündürlüyü 11 sm olan fraqmentin üzərinə anqob çəkilib. (şəkil 13).

Zoomorf bardağın üst hissəsi. Maili çiyni, qısa dar boğazı, çiyin və boğaza birləşdirilmiş qövsvari lent şəkilli qulpu var. Ağzı nov şəklində salınmış və bir qədər yuxarı qaldırılmışdır. Ağzının yanlarına qövsvari qulaqcıqlar bərkidilib. Hər birində iki yapma düyməcik var. Çiyindən boğaza keçid ləkəvari qabarıqlarla bildirilib. Çiynində cızma xətlə qurşaq salınıb. Qurşaqda üç-üç qruplaşdırılmış qısa cızma xətlər - üçbucaqlar vardır. Üçbucaqların uclarına çevrə yerləşdirilib. Gövdənin yuxarı-

sında cızma xətlər, çərtmələr düzümü və çevrələr salınıb. Bardaq cod, tərkibinə qum qarışıq gildən hazırlanıb. Qeyri-sabit hərarət rejimində bişirilmiş qabın salamat qalmış hissəsinin hündürlüyü 20 sm-dir. (Şəkil 14).

Orijinal görünüşlü su qabının salamat qalmış yuxarı tərəfi xüsusi maraq doğurur. Qabın boğazı və lüləyi zoomorf formada işlənib. Qulaqcıqlar və lülək filin qulaqlarına və xortumuna bənzədilib. Qulaqcıqlarla lülək arasında yapma çıxıntı salınıb. Qulaqcıqların alt tərəfində nöqtəvari deşik açılıb. Boğazında isə iki qabarıq kəmər salınıb. Qulp lent şəklində olub, qabın çiyninə və lüləyinə birləşir. Qulpun üstündə qabı rahat tutmaq üçün xüsusi çıxıntı qoyulmuşdur. Qabın yuxarı tərəfində suyu və ya digər mayeni doldurmaq üçün boru şəkilli xüsusi hissə düzəldilmişdir. Qırmızı boya ilə rənglənmiş qab qeyri sabit hərarət rejimində bişirilib. (Şəkil 15).

Fil görüntülü digər zoomorf elementli qab qırığı iri tutumlu səhəngə məxsusdur. Yanlardan yapışdırılmış iri qulaqcıqlar ona fil görüntüsü verir. Boğazının yuxarısına qabarıq xətlər salınıb. (şəkil 16). Şəmkirli ustaların filə oxşadılmış zoomorf qablar istehsal etməsi onların bu heyvanı tanımasını göstərir. Bu orta əsrlərdə Hindistanla əlaqələrin mövcudluğunu bir daha təsdiqləyir.

Zoomorf elementli səhəng fraqmentinin boğazı qısa və dardır. Səhəngin ağzı nov şəklində yuxarı qaldırılıb. Ağzının yanlarına qaba zoomorf görünüş verən böyük qulaqcıqlar yapışdırılıb. Qeyri sabit hərarət rejimində bişirilən səhəngin qulpu sınıb (şəkil 17).

Hündür boğazlı, zoomorf elementli səhəngin boğazı silindrik formadadır. Aşağı tərəfində çıxıntı şəklində qurşaq salınıb. Qabın boğazının yuxarısından başlayaraq ağzı nov halında bayıra çıxarılıb və yuxarı qaldırılıb. Fraqmentin hündürlüyü 16,8 sm-dir. (Şəkil 18).

Zoomorf qab fraqmentlərinin əksəriyyəti qeyd edilmiş kimi su qablarına məxsusdur. Lakin aşkar olunmuş saxsı məmulatlar arasında iki zoomorf tutacaq vardır. Onların üzərinə hərəkətdə olan tısbağa və ya başqa bir sürünən canlı fiquru yapışdırılıb (şəkil 19).

Şəmkirli sənətkarlar məişətdə işlədilən müxtəlif qabların bədii tərtibatında antropomorf motivlərdən də istifadə edirdilər. Şəhristanda VI qazıntı sahəsində aparılan arxeoloji qazıntılar nəticəsində aşkar olunan güvəc qırığı üzərində kişi sifəti təsvir edilib. Qısa, boru şəkilli lüləyi olan güvəcin lüləyi yapma çubuq, batıq və çərtmələr vasitəsilə bəzədilərək kişi sifəti formasına salınıb. Güvəcin su tökülən hissəsi insanın ağzı şəklində verilib. Qab fayans qabın qırıqları ilə inkrustasiya olunub. Lüləyin fraqmenti 4 sm-dir (8, səh.242).

Şəmkir şəhər yerindən tapılan belə nümunələrdən biri də üzərində insan sifəti çəkilmiş saxsı su qabın fraqmentidir. Gen boğazlı, maili çiyni olan fraqment iri tutumlu səhəngə məxsusdur. Enli qulpu qövsvari formada olub, boğazın aşağısına və gövdənin yuxarısına birləşdirilib. Qulpun yuxarı tərəfinə yapma və kəsmə üsulla insan sifəti verilib. Qaşlar və burun yapma üsulla, gözlər, burun dəlikləri və ağız kəsmə üsulu ilə bildirilmişdir. Qabın üzərinə qırmızı boya çəkilib. Fraqmentin hündürlüyü 17 sm-dir. (şəkil 20).

2014-cü ildə davam etdirilən arxeoloji qazıntılar zamanı aşkar olunan ən dəyərli tapıntılardan biri antropomorf su qabıdır (şəkil 21). Çəllək formasında hazırlanan qaba dəvə görünüşü verilmişdir. Salamat qalmış yeganə ayaq elə ustalıqla hazırlanıb ki, qabın dəvə formasında olduğuna şübhə qalmır. Təəssüf ki, dəvənin başı, arxa tərəfi və ayaqlarının üçü sınıb. Dəvənin üzərində kişi oturub. Kişinin topa saqqalı var. Başındakı papaq bir sıra şərq xalqlarının bu gün də işlətdiyi papaqlara oxşayır. Papaq hissə qabın ağzı rolunu oynayır. Kişi fiqurunun sağ əli sinəsinə qoyulub və yumruğu düyünlənib. Sol qolu çiynindən qırılıb. Dəvənin gövdəsinin sağ tərəfi qırıldığından kişi fiqurunun ayağı da sınmışdır. Sol tərəfdəki ayağı salamat qalıb. Onun ayağında uzunboğaz çəkmə vardır və çəkmənin ucu sivridir.

Kişi fiqurunun arxasına yapışdırılmış qulp dəvənin hürgücü rolunu oynayır. Hündürlüyü 43 sm, gövdəsinin diametri 15 sm olan qabdan şərab çəlləyi və ya su qabı kimi istifadə olunması ehtimalı üzərində dayanmağı daha məqsədə uyğun sayırıq.

İntensiv arxeoloji qazıntılar zamanı Şəmkir şəhər yerindən aşkar olunan zoomorf və antropomorf xarakterli su qablarına məx-

sus qalıqları şəhərdə orta əsrlərdə sənətkarlığın yüksək səviyyədə inkişaf etdiyinin göstəricisidir.

Zoomorf görünüşlü əşyaların hazırlanması və şəhər sakinlərinin onlardan istifadə etməsi orta əsrlərdə insanların ətraf aləmə münasibətini, müxtəlif inanclara olan tələbatının ödənilməsini göstərirdi. Görünür, insanlar sənət nümunəsi olan bu zoomorf əşyalardan bədii zövq almaqla yanaşı, həm də həyatın müxtəlif sahələrində uğur qazanmaq üçün inandıqları zoomorf himayədarlara sığınırdılar.

Görünən odur ki, dünya dinləri meydana gəlməmişdən qabaq yaranan təsəvvürlər xalqın yaddaşında qalmış, tədricən dəyişilərək islam dininin hakim olduğu orta əsrlərdə də yaşamağa davam etmişdir. Qeyd etməliyik ki, coğrafi və təbii şərait, bölgə əhalisinin iqtisadi və mədəni həyat tərzi insanların dünya görüşündə və gündəlik həyatında mühüm rol oynayırdı.

## ƏDƏBİYYAT

1. Bəşirov R.Y. - Orta əsr Şəmkir şəhərinin zoomorf tapıntıları. Azərbaycan Arxeologiyası. 2009 . №2
2. İbrahimov Bəhlul, Hüseynova Sevil, Əliyev Elvin. - Xaraba - Gilandan tapılmış zoomorf əşyalar. Azərbaycan Arxeologiyası, 2006, №1 - 4.
3. Гусейнова М.А., Алиев И.Н. - Среднебронзовые курганы с.Гараджамирли Шамкирского района Азербайджана. Şəmkir; arxeoloji irsi, tarixi və memarlığı. Birinci respublika elmi-praktik konfransının materialları. Bakı, 2008.
4. Рзаев Н.И. - Искусство Кавказской Албании (IV в до н.э. -VII в.н.э.), Баку, 1976.
5. Казиев С.М. - Альбом кувшинных погребений, Баку, 1960.
6. Халилов Дж.А. - Раскопки на городище Хыныслы - памятника древней Кавказской Албании. СА., 1962, №1
7. Исми-заде О.Ш. - О зооморфной керамике из Каратепе. ДАН Азерб.ССР. 1959, т. XV, №1.
8. Dostiyev T., Bəşirov R., Mirzəyev R., Hüseynli N. - Şəmkir arxeoloji qazıntılar və artefaktlar. Bakı, 2013.

***Рашид Юсиф оглы Баширов***

## ЗООМОРФНЫЕ И АНТРОПОМОРФНЫЕ ИЗДЕЛИЯ СРЕДНЕВЕКОВОГО ГОРОДИЩА ШАМКИР

### *РЕЗЮМЕ*

В статье исследуются зооморфные и антропоморфные изделия, выявленные на средневековом городище Шамкир. Они представлены в основном керамическими кувшинами и крашеными кюпами, венчик, ручка или горло которых сделаны в виде животных или человека. В основном это изображения барана, собаки, змеи, птицы или человека. Имеется также фрагмент металлической фигуры, а также булавка с фигуркой птицы. Появление изделий зооморфной и антропоморфной формы связано с астрально–космогониическими взглядами и ранними религиозными представлениями населения древнего Азербайджана, пережитки которых сохранились и в исламский период.

***Rashid Yusif oglu Bashirov***

## ZOOMORPHIC AND ANTROPOMORPHIC ARTIFACTS FROM THE MEDIEVAL SHAMKIR CITI

### *SUMMARY*

This article is dedicated to zoomorphic and anthropomorphic artifacts found in the medieval Shamkir city. They are presented by ceramic and painted jugs. The aureole, throat or handle of these jugs are made in the form of animals or of human. Basically it's indicated ships, dogs, snakes and birds descriptions. There was also found the fragment of metallic figure that is presented by pin with the statuette of a bird and human. Zoomorphic and anthropomorphic forms were established by ancient people of Azerbaijan as a result of early religion and cosmological view and continued Islamic period as a tradition.



Şəkil 1.



Şəkil 2.



Şəkil 3.



Şəkil 4.



Şəkil 5.



Şəkil 6.



Şəkil 7.



Şəkil 8.



Şəkil 9.



Şəkil 10.



Şəkil 11.



Şəkil 12.



Şəkil 13.



Şəkil 14.



Şəkil 15.



Şəkil 16.



Şəkil 17.



Şəkil 18.



Şəkil 19.



Şəkil 20.



Şəkil 21.